# Azad rayonlara yüksək səfərlər, təqdim edilən layihələr və "Böyük Qayıdış"ın simvolları...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

**Ali Baş Komandanın, cənab Prezident İlham Əliyevin rəhbərliyi, qətiyyəti, siyasi iradəsi, uğurlu və uzaqgörən siyasəti ilə, müzəffər Azərbaycan Ordusunun rəşadəti, əzmi ilə, eləcə də xalqımızın birliyi ilə, bir zaman Qarabağ münaqişəsi adlanan məsələni həll etdik.**

Ölkə başçısının da qeyd etdiyi kimi, artır, Qarabağ münaqişəsi deyilən bir məsələ yoxdur. Şuşa, Füzuli, Ağdam, Qubadlı, Laçın, Zəngilan, Cəbrayıl, Ağoğlan (Hadrut), Kəlbəcər, Xudafərin geri qaytarıldı və bu torpaqlarımız əzəli, əbədi sahiblərinin geri qayıdışını gözləyir. Namərdcəsinə hücum edən ermənilərin ərazilərimizi işğal etməsi ilə yurd-yuvalarından didərgin düşənlərin, yeni kəmfürsət yağıların qəsbkarlığı sayəsində öz evlərini tərk etmək məcburiyyətinfə qalanların, 30 ilə yaxın düşmən tapdağı altında qalan torpaqlarımızın sahiblərinin qayıdışı, "Böyük Qayıdış" artıq başlayıb.

### Zaman dəyişir, amma erməni faşizminin eybəcər sifəti dəyişmir

Heç kim üçün sirr deyil ki, işğaldan azad etdiyimiz ərazilərimzdə çox sürətli şəkildə, hətta iri addımlarla quruculuq işlərinə başlanılıb və tez bir zamanda bu işlərin müsbət nəticələr verəcəyinə kimsənin də şübhəsi ola bilməz. Erməni işğalına qədər Azərbaycanın dilbər guşəsi olan, sonra isə elə erməni vandalları tərəfindən viran qoyulan ərazilərimizin tez bir zamanda əvvəlkindən daha da abadlaşdırılacağına, hətta dilbər guşəmizin bundan sonra cənnətə çevriləcəyinə ümidi olmayan kimsə tapılmaz, çünki, Azərbaycanın bunun üçün istəyi, amalı, gücü, qüdrəti, imkanları və iradəsi də yetrincədir.

Biz mütəmadi olaraq, Azərbaycan Prezidenti və Birinci vitse-prezident Mehriban Əliyevanın işğaldan azad edilən rayonlarımıza birgə səfərlərinin şahidi oluruq. Hər belə səfərdə bir çox strateji layihələrin təməli qoyulur və ya qısa müddətdə ərsəyə gələnlərin açılışı edilir. Təbiidir ki, bütün bu önəmli layihələr işğaldan azad edilən rayonlarımıza "Böyük qayıdış"ı simvolizə edir. Prezident və birinci xanım son belə səfəri Laçın və Kəlbəcərə etdilər. Azərbaycan Prezidenti İlham Əliyev Laçın rayonuna səfəri zamanı bunları deyib:

"İndi biz Laçın rayonuna gedirik. Kəlbəcər şəhərinə sonra gedəcəyik. Laçında bu gün hava limanının təməli qoyulacaq. Kəlbəcər-Laçın yolu da yenidən ən yüksək səviyyədə qurulacaq. Və indicə təməlini qoyduğum hər iki tunel bu yolu daha da rahat edəcək. Kəlbəcər şəhərinə yaxınlaşırıq. Bir neçə dəqiqədən sonra Kəlbəcər şəhərində olacağıq. Artıq Kəlbəcər şəhərindəyik, şəhərin girəcəyindəyik. Bax, bunlar vəhşi ermənilərin əməlləridir. Baxın, görün, şəhər ermənilər tərəfindən tamamilə dağıdılmışdır. Vəhşi ermənilər başqa şəhər və kəndlərimiz kimi, Kəlbəcəri də dağıdıblar. Bütün binalar dağıdılıb. Bəzi binalarda ermənilər qanunsuz yaşayırdılar. Buradan çıxanda o binaları da yandırıb, sökdülər. Vaxt dəyişir, amma erməni faşizminin eybəcər sifəti dəyişmir. 1990-cı illərin əvvəllərində bu torpaqları işğal edərkən bizim şəhər və kəndlərimizi dağıtmışdılar. 2020-ci ildə biz bunları buradan qovanda da gedə-



getdə ağacları kəsib, yandırıb, binaları dağıdıblar. Yolun sağında da, solunda da bir dənə salamat bina yoxdur. Baxmayaraq ki, ermənilərin bir hissəsi Kəlbəcər rayonunda qanunsuz məskunlaşmışdılar. Ancaq azərbaycanlılara məxsus olan bütün evləri yerlə-yeksan ediblər. Bax, indiki Kəlbəcər şəhəri budur. Biz Kəlbəcər şəhərini də, kənləri də yenidən quracağıq. Bax, bütün evlər dağılmış vəziyyətdədir".

### Bu prosesdə büdcədənkənar vəsaitlərin də cəlb olunması Qarabağa qayıdışımızı sürətləndirəcək

Prezidentin bu çıxışı bir daha erməni vəhşiliyinin dərəcəsini və Azərbaycanın həmin vandallıqları aradan qaldırmaq gücü və əzmində olmasını sübut edir. Bəzən vətəndaşlarımız öz ata-baba yurdlarına tez qayıtmağı istəyirlər. Hətta həmin yerləri görmək üçün icazəsiz səfər edib, minaya düşüb həlak olan vətəndaşlarımız da var. Ancaq bilinməlidir ki, beynəlxalq təcrübədə post-konflikt bərpa dönəmi var. Bu zaman münaqişə nəticəsində dəymiş ziyanın təhlili, post-konflikt ərazilərinin minalardan təmizlənməsi, infrastrukturun bərpası, səhiyyə və təhsil kimi xidmətlərinin bərpası, məcburi köçkün icmalarının evlərinə qaytarılması, iqtisadi bərpa kimi bir çox məsələləri əhatə edir.

2021-ci ilin dövlət büdcəsində əsaslı xərclər üçün nəzərdə tutulan vəsaitin 2,2 milyard manatı işğaldan azad olunan tarixi ərazilərimizə böyük qayıdışın təmin edilməsinə xərclənəcək. Məlum olduğu kimi, erməni vandallarının 30 il ərzində yaşayış və ictimai binaları yerlə-yeksan edərək dağıtması, bütün infrastruktur obyektlərini, maddi-mədəniyyət abidələrini məhv etməsi, yeraltı sərvətlərimizi vəhşicəsinə talan etməsi nəticəsində dəymiş ziyanın aradan qaldırılması və həmin ərazilərə yenidən həyatın və iqtisadi inkişafın qayıtması böyük vəsait tələb edir. Dövlət büdcəsinin resurslarının məhdud olduğunu nəzərə alsaq, bu prosesdə büdcədən kənar vəsaitlərin də cəlb olunması Qarabağa qayıdışımızı sürətləndirəcək. Qarabağın yenidənqurma proqramı beynəlxalq maliyyə qurumlarının, yerli və xarici investorların, kommersiya banklarının vəsaitlərinin bu prosesə cəlb olunmasını tələb edir.

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**